Məmmədova Humay Hacəli qızı48

# AZƏRBAYCAN NƏSR VƏ DRAMATURGİYASININ İLK QADIN SİMASI-SƏKİNƏ AXUNDZADƏ

Rus və Avropa ədəbiyyatında qadın romanı 18-ci əsrin sonlarından yaranmağa başlasa da, Azərbaycan ədəbiyyatında onun ilk nümünələrinə xeyli sonralar-19-cu əsrin sonlarında rast gəlirik.
Azərbaycan ədəbiyyatında ilk qadın nasirlər Səkinə Axundzadə və Şəfiqə Əfəndizadə hesab olunur.
Azərbaycan ədəbiyyatı və incəsənəti tarixində, eləcə dəyeni dövr Azərbyacan maarifinin inkişafında Səkinə xanım Axundzadə xüsusi yer tutur.
Səkinə Axundzadə Azərbaycanın ilk qadın dramaturqu, roman janrında yazan ilk azərbaycanlı qadın yazıçısı, tanınmış maarif xadimi və Azərbaycan dilində məktəb dərsliklərinin müəllifi olmuş ilk azərbaycanlı qadın pedaqoqdur.
Səkinə xanım Axundzadə 1865-ci ildə Quba şəhərində ziyalı ailəsində anadan olmuşdur. Quba şəhərində böyüyüb, boya-başa çatan Səkinə xanım, elə təhsilini də burada almışdır. Onun atası "Fəda" təxəllüsü ilə şeir yazan şair və ziyalı Mirzə Heybət Axundzadə olmuşdur. Mirzə Heybət 19-cu əsrin birinci yarısında görkəmli alim, şair, filosof və mütəfəkkir Abbasqulu Ağa Bakıxanovun Qubada yaratdığı "Gülüstani-İrəm" ədəbi məclisinin fəal üzvlərindən biri kimi tanınmışdır. İlk təhsilini atasından alan Səkinə xanım, ana diliylə yanaşı, ərəb və fars dillərini də mükəmməl şəkildə öyrənmiş, gənc yaşlarından isə ədəbiyyata, incəsənətə xüsusi maraq göstərmişdir. (7-s.13)
Gənclik illərində Quba şəhərindəki məktəblərdə dərs deyən Səkinə xanım açıq fikirli, mütərəqqi ziyalı qadın kimi rəğbət qazanır və kənd camaatı tərəfindən sevilir. Hətta bir çoxları ona "Böyük Ana" deyə müraciət etmişlər. Səkinə xanım gənc yaşlarında Talıb adlı şəxlə ailə həyatı qurur və bu izdivacdan bir qız övladı- Höküməxanım dünyaya gəlir. Lakin cütlüyün ailə həyatı faciə ilə sona çatır. Mürtəce dindarların qəzəbinə düçar olan gənc müəllimənin həyat yoldaşı xüsusi sifariş ilə qaçaq Alı tərəfindən qətlə yetirilir. O dövrdə qadınların ön plana çıxması, dünyəvi biliklərə yiyələnməsi, müasir düşüncə tərzinə sahib olması, xalqın maariflənməsinə yönəlik açıq çıxışlar etməsi cəmiyyət tərəfindən qəbuledilməz hal idi. Lakin bütün bu təzyiqlərə məruz qalan Səkinə xanım öz yolundan dönmür və pedaqoji fəaliyyətinə davam edir. 1900-cü ildə Səkinə Xanım H.Z.Tağıyev tərəfindənBakıya ana dili və ədəbiyyatdan dərs deməyə dəvət olunur. Beləliklə Səkinə xanımın başının üzərindən keçən qara buludlar 1900-cü ildə yavaş-yavaş dağılmağa başlayır. Səkinə xanım Tağıyevin Qızlar Məktəbində şəriət və ədəbiyyat dərslərini tədris edir. Məhz bu dördə Səkinə xanım Azərbaycanda ilk dəfə olaraq, qızlardan ibarət teatr truppası yaradır və ilk dram əsərlərini qələmə alır. O, qələmə aldığı əsərləri tələbələrinin köməkliyi ilə səhnələşdirir. ( 1-s.4) Beləliklə, Səkinə xanım Axundzadəni Azərbaycanın ilk qadın dramaturqu olmaqla yanaşı, həm də ilk qadın rejissoru da adlandırmaq mümkündür.
Qulam Məmmədli yazırdı:
"Səkinə xanım müəllimliyə başladığı zaman Bakı səhnəsində Cahangir Zeynalov, Əbülfət Vəli, Mirzəağa Əliyev, Hüseyn Ərəblinski kimi teatr xadimlərinin iştirakı ilə tamaşalar verilirdi. Qadın rollarını kişilər oynayır, səhnə qadın arzusu ilə, qadınlar isə səhnə həsrəti ilə yaşayırdılar. Çadra altında teatra gəlib, örtülü lojalardan səhnəyə baxan Səkinə xanımın ürəyindən nələr keçmirdi?" ( 7-s.15)
Lakin o vaxt bu arzuların qarşısında din və şəriət qanunları keçilməz dəmir hasar təki dayanmışdı. Bu hasarı uçurmaq asan deyildi. Hələlik onu yandan keçmək üçün yol tapılmalı idi.
Səkinə xanım zəngin yaradıcılıq irsinə sahib olmasa da Azərbaycan ədəbiyyatında ilk qadın dramaturq, ilk qadın romançı ünvanına sahibdir. Onun ədəbi irsindən bizə beş pyes, bir roman və bir neçə publisistik məqalə məlumdur. Təəssüf ki, Səkinə xanımın pyeslərinin heç biri dövrümüzə gəlib çatmadığından onlar haqqında yalnız resenziya, salnamə və məqalərdən azacıq məlumata sahib ola bilirik. Səkinə xanımın pyeslərinin əldə olunmaması ilə bağlı Q. Məmmədli müsahibələrinin birində ürək ağrısı ilə deyir: "Necə təəssüflənməyəsən ki, 1903-cü ildən başlayaraq beş pyes yazan ilk dramaturq qadın Səkinə xanım Axundzadənin əsərlərindən biri də gəlib bizə çatmayıb. Axı Səkinə xanım Yaxın Şərqdə ilk dramaturq qadındır. Bununla fəxr etməmək olarmı?" ( 7-s.15)
Əsərlərinin taleyi haqqında dəqiq məlumat əldə yoxdur. Bəzi mənbələrdə Səkinə xanımın əsərlərinin qardaşı qızı- o vaxt Rəssamlar İttifaqı Heyətinin sədr müavini olan Reyhan Topçubaşova tərəfindən repessiya qorxusundan yandırıldığı deyilir. Beləki Səkinə xanımın oğlu Yusif bəy Gəncə Dövlət Universitetinin dosenti olmuş və açıq fikirliliyi o vaxtkı hakimiyyəti narahat etdiyindən 1937-ci ildə sürgün olunmuş, bir müddət sonra güllələnmişdir. Məhz bu səbəbdən də qardaşı İbrahim bəyin qızı Reyhan Topçubaşova tərəfindən yandırıla biləcəyi güman olunur. (5-s.13)
Səkinə xanımın azərbaycanlı qadınların da səhnədə oynaması arzusu ilə yazdığı ilk səhnə əsəri 1904-cü ildə qələmə aldığı "Elmin səmərəsi" pyesidir. Əsər səhnələşdirilərkən obrazların çoxu qadınlar oldu, beləki rolları gimnaziyanın tələbələri və müəllimələri ifa etmişdir. Tamaşaçılar da ancaq qadınlardan ibarət idi. Qulam Məmmədli yazırdı: "Azəri qadınları səhnə mədəniyyətinin nübarını belə daddılar". Tədqiqatçı Nazif Qəhrəmanlı Səkinə xanımın ilk dram əsəri haqqında yazır: "Elmin səmərəsi" pyesi hardasa "Anamın kitabı"nı xatırladır. Lakin bu pyes "Anamın kitabı"ndan iyirmi il əvvəl yazılıb.
"Kaspi" qəzeti isə həmin tamaşadan bəhs edərək yazırdı:
"Səkinə xanım Bakı əhalisinə, müsəlman səhnəsi yolunda çalışan, bu sahəni hədsiz dərəcədə sevənlərdən sayılır. Demək olar ki, o bu sahədə hələlik yeganə qadındır. Tamaşaçılar indiyədək onun iki əsərini görmüşlər. "Bəxtsiz bala" və "Elmin səmərəsi".
Əgər bizim müsəlmanlar arasındakı ictimai şərait başqa cür olsaydı, müsəlmanlar Səkinə xanımın simasında görkəmli və məhsuldar bir yazıçı görmüş olardılar. Elə indi də Səkinə xanım bizim çox da zəngin olmayan repertuarımıza əsər yazmağa imkan tapır." ( 3-s.35)
Səkinə xanımın yaradıcılığında dramaturgiya daha önəmli yer tutur. Beləki səhnəyə, teatra bağlı olan Səkinə xanımın daha çox səhnə əsərləri yazmağa üstünlük vermişdir.
Səkinə xanımın dramturgiyaya önəm verməsinin bir çox səbəbi var idi. Bunlardan ən əsası qadınların səhnəni görməyi, səhnəylə tanış olmağı, artıq qadın obrazlarını elə qadınların oynamağını istəməsi idi.

---

48 BMU-nun doktorantı. humaynew@yahoo.com

Səkinə xanımın dramaturgiyaya müraciətinin səbəblərindən biri də tamaşaya qoyulan yeni əsərlərin keyfiyyətindən narazılığı idi. Publisistik yazılarının əsasən, əsasən, "S.", "S.A." imzaları ilə yazan Səkinə xanım məqalələrindən birində yeni dram əsərlərinə belə münasibət bildirir. "On il bundan əvvəlləri səhnəmizdə oynanılan, olduğu qədər də ibrətamiz olan dramnəvis məşhur ədiblərimizdən M.F.Axundzadə, Ə.B.Haqverdiyev, N.Nərimanov, N.B.Vəzirov və qeyrilərinin asan dil ilə yazılmış "Hacı Qara", "Ağa Məhəmməd şah Qacar", "Nadir şah", "Müsibəti Fəxrəddin" və qeyrilərinin yerinə indi nələr görürük? (6-s.11)

İlk səhnə əsərlərinin uğurlarına davam edən Səkinə xanım bu istiqamətdə fəaliyyətini davam etdirir. " Elmin səmərəsi" pyesindən sonra Səkinə xanım "Gəlin və qayınana" , "Şahzadə Əbülfəz", "Haqq sözü acı olar", "Zülmün səmərəsi", "Bəxtsiz bala" adlı pyeslərini yazmış və ya başqa dildən tərcümə-təbdil etmişdir ki, bunlardan yalnız "Şahzadə Əbülfəz"in (roman formasında yazdığı "Şahzadə Əbülfəz və Rəna xanım"ın) 1918-ci ildə kitabça şəklində çap edilmiş nüsxəsi gəlib bizə çatmışdır. (6-s.11)

Səkinə xanım "Bəxtsiz bala" dramını Namiq Kamalın "Zavallı çoçuq" əsərindən təbdil etmişdir. Son pyesi Leo Delibin "Lakme" əsərindən təbdil etdiyi " Zülmün səmərəsi"dir. Güman edilir ki, avrosentrizm ideyalarının daşıyıcısı olan bu əsərin təbdilinin əsas səbəbi XX əsrin əvvəllərində Azərbaycanda qərbçilik ideyalarının geniş yayılması ilə bağlıdır. Lakin Seyid Hüseyn pyes haqqında yazdığı məqalədə belə bir fikri ifadə etmişdir ki, "S.Axundzadə öz yaradıcılıq işinə sənətkarlıq cəhətdən ciddi yanaşsa da, ideyaca faydalı əsər yarada bilməmişdir." Buna səbəb kimi Leo Delibin birtərəfli yanaşma sərgiləyərək, Şərqi Qərbə qarşı qoyduğu əsəri təbdil etməsi göstərilmişdir. Lakin bu tənqidi fikirlərə rəğmən pyesin öz dövründə müsbət qarşılandığı deyilir. (7-s.15)

Qeyd etdiyimiz kimi Səkinə Axundzadə Azəarbaycanın və Şərqin ilk qadın dramaturqu olduğu kimi həm də ilk qadın yazıçı hesab olunur.

Səkinə xanımın qələmə aldığı "Şahzadə Əbülfəzl və Rəna xanım " əsəri ilə ilk qadın romançı ünvanının sahibi olmuşdur. Əsərin roman janrına daxil edilib-edilməməsi mübahisəlidir. Beləki həcmcə kiçik olduğundan əsər bəzən hekayə, bəzən də forma etibarilə dastan adlandırılır. H.Ənvəroğlu "Azərbaycan romanının inkişaf problemləri" adlı tədqiqatında Səkinə xanımın əsərinin yalnız şərti olaraq roman adlandırıla biləcəyini qeyd edir. (6-s.11)

Həmin kitab üçün yazılmış giriş sözündən Səkinə xanımın qələm üslubu, dili və Azərbaycan folkloruna münasibəti haqqında məlumat əldə etmək mümkündür:

"Uşaqlar nağıldan xoşlandığı kimi, böyük adamlar da roman səpgidə yazılan əsərlər insanların ruhunda böyük təsir buraxır. Odur ki, tarixi əsərləri də camaata oxutmaq üçün münaqişə tərzində tarixi romanlar yazılır. Ona binaən mən də bu hekayəni roman tərzində yazmağı lazım bildim.

Hər millətdə kişilərdən şair və ədib olduğu kimi, məşhur şair və ədib xanımlar da çoxdur ki, onların vücudu ilə fəxr olunur. Qafqazda oxumuş və iqtidarlı xanım qızlarımız son vaxtlarda get-gedə artmaqdadır. Lakin bu vaxtadək adət olmadığı üçün yazmaqdan, bəzi səbəblərə görə çəkinirlər. Onlara bir yol açmaq məqsədilə bu romanı, layiq olmasa da yazıb meydana qoyub da, qarelərdən rica edirəm ki, bu qiymətsiz əsərimdə bir səhv və xəta olursa əfv etsinlər." (3-s.37)

Bu yazıdan da aydın olduğu kimi, Səkinə xanım əsərinin bəsit və qüsurlu olduğunu bilir və açıq şəkildə ifadə edirdi. Lakin əsərə dəyər biçən yazıçının ülvi amalıdır. Qadınları həvəsləndirmək, onlara cığır açmaq kimi çox məsuliyyətli bir vəzifəni məhz Səkinə xanım üstlənmişdir

Bu yazıdan həmçinin, Səkinə xanımın roman janrı haqqında olan fikirlərini də öyrənə bilirik. Beləki müəllif əsərini "insanların ruhunda böyük təsir buraxmaq" məqsədilə roman janrında yazdığını bildirir.

Əsər roman içində roman-nağıl texnikası ilə yazılıb. Kiçik təbiət təsviri ilə başlayan əsərdə əsas roman tərəkəmə qızının öz sevgilisinin yolunu gözləməsi və xiffət çəkməsi ilə başlayıb, qarının hekayə (nağıl) danışıb bitirməsindən dərhal sonra oğlanın gəlib, çıxması, bir neçə gün sonra onların evlənib şad-xürrəm yaşaması ilə bitir. Əsərin adının da qarının danışdığı hekayə ilə bağlı olması onun əhəmiyyətini ön plana çəkir. (6-s.11)

"Şahzadə Əbülfəzl və Rəna xanım əsər istər forma, istərsə də məzmun etibarilə həm nağıl, həm də dastanı xatırladır.

Nəticə.Səkinə xanım Axundzadənin istər Azərbaycan ədəbiyyatında, istər Azərbaycan teatr tarixində, istərsə də Azərbaycan təhsilində böyük xidmətlər göstərmiş və özünəməxsus yeri olmuşdur. Belə ki, çox çətinliklə olsa da, O həyatının ən böyük amalına, məramına nail olmuş, şərq qadınını ilk dəfə olaraq səhnəylə tanış etmiş, ilk qadın aktrisaların səhnəyə gəlişinə dəstək olmuşdur. Həmçinin Səkinə xanım daima ictima həyatında mübariz qadın olmuş və Azərbaycan qadınının maaariflənməsi uğrunda da daima çalışmışdır.

ƏDƏBİYYAT

Arzumanlı V. Azərbaycanın və şərqin ilk qadın dramaturqu //Ədəbiyyat qəzeti. 2002, № 16 (3297), s. 4

Xəlilzadə F. Zülmətdə parlayan işıq // Mədəniyyət. 2011, 13 may, s. 13

Məmmədli Q. Azərbaycan teatr salnaməsi (mətn) (1850-1920), Bakı: Azərnəşr, 1975. 582 s.

Sarıyeva İ. Bir səmanın üç ulduzu- Ulduz Əliyeva, Səkinə Axundzadə və Göyərçin xanım // Bakı xəbər. 4 sentyabr, 2015, № 158 (3117), s. 15

Tahirqızı Ü. Çiçəksiz baharın fidanı // Xalq cəbhəsi. 11 oktyabr, 2014, s.13

Vahid M. Azərbaycan qadınının ilk roman təcrübəsi // Ədəbiyyat qəzeti. 1 avqust, 2015, s.11

Vahid M. İlk dramaturq və romançı qadın // Ədəbiyyat qəzeti. 25 iyul. 2015, s.15

Açar sözlər: roman, qadın, teatr, pyes,ilk qadın yazıçılar.

Key words: novel, woman, theatre, plays, the first women writer

Ключевые слова: роман, женщина, театр, пьеса, первые женские писатели.

Перваяженщина представительв азербаджанской прозы и драмы Сакина Ханум Ахундзаде

Резюме

Жанр романа в русской и европейской литературе стал зарождаться в конце 18-го века, а в Азербайджане и на Востоке зарождение этого жанра началось только к концу 19-го века. Первое писательницей в Азербайджане и на Востоке была Сакина Ахундзаде. Сакинаханум Ахундзаде занимает особое место в истории азербайджанской литературы и

искусства, а также в развитии азербайджанского просвещения нового периода. Сакина Ахундзаде является первой азербайджанской женщиной-драматургом, первой азербайджанской писательницей в жанре романа, известным деятелем просвещения и первой женщиной-педагогом, ставшим автором школьных учебников на азербайджанском языке.
Как мы отметили, Сакинаханум является первой женщиной-драматургом. Её самая большая заслуга была именно в театральной сфере. Так, Сакинаханум, помимо написания первого сценического произведения, так же вывела на сцену первую актрису. Она создала первую театральную труппу из женщин. Большую часть её творчества составляют пьесы. Однако кроме пьес, Сакинаханум является автором одного романа и многих публицистических произведений.

Sakina Khanum Akhundzadeh- the first  woman representative of azerbaijan prose and drama.

Summary
In Russian and European literature genre of then novel began to form in the late 18th century, but in Azerbaijan and East literature only started to be formed at the end of the 19thcentury. The first woman writer of Azerbaijan and East literature was Sakinakhanum Akhundzadeh. Sakina Akhundzadeh holds a special place in Azerbaijan literature and art history, as well as the development of a new era of enlightenment.
SakinaAkhundzadeh was first female playwright, who wrote the first woman writer in the genre of the novel/ the author of well-known educational figure and the first woman in the Azerbaijani language educator of scholl textbooks
As we mentioned, Sakinakhanum was the first woman playwright. She’s the greatest servise has been linked to the theater. So the first stage writing, Sakinakhanum also have staged the first woman actress. She was created the first women’s theater group. There were plays  the most of the creative’s Sakinakhanum.  But in additional plays of Sakina Akhundzadeh, she’s an author of one novel and a lot of  letters.

Rəyçi:  f.e.d. Professor Bədirxan Əhmədov